# Azad edilmiş ərazilərin bərpası prioritet vəzifələrdəndir



***Vaxt vardı ki, əlimiz yetməyən torpaqların həsrətini yanıqlı "Qarabağ şikəstəsi" ilə aləmə yayırdıq. İndi artıq azadlığına qovuşmuş bu qədim yurdu tərənnüm edən zəfər marşlarının, oratoriyaların zamanıdır. Qarabağdan erməni izləri təmizlənir, orada yollar salınır, ağaclar əkilir, çiçəklər açır, evlər, binalar tikilir. Əzəli sahiblərinin sığalı ilə cana gələn torpaqlar ətir və inam yayır.***

Birinci Qarabağ müharibəsindən sonra Azərbaycanın bir çox sahələrdə, o cümlədən hərbi-siyasi sahədə güclənməsinin, özünün haqq səsini dünyaya çatdıra bilməsinin və ordu quruculuğunda həyata keçirdiyi uğurlu islahatların nəticəsi olaraq, İkinci Qarabağ müharibəsində parlaq Qələbə qazanması beynəlxalq informasiya məkanının gündəmindən düşmür. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin örnək qətiyyəti, rəşadətli Silahlı Qüvvələrimizin müasir döyüş taktikası, xalqımızın sarsılmaz birliyi nümunə kimi öyrənilməkdə və tətbiq üçün tövsiyə olunmaqdadır.

Cənab İlham Əliyevin martın 31-də keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısındakı çıxışında da bildirdiyi kimi, işğalın davam etdiyi 30 ilə qədər dövr ərzində ermənilər Qarabağ torpaqlarında misli görünməmiş vandalizm aktları törətmiş, infrastrukturu tamamilə dağıtmış, daşı daş üstə qoymamışlar. İndi qarşıda duran əsas vəzifə həmin ərazilərin bərpa olunması və məcburi köçkünlərin tezliklə və təhlükəsiz şəkildə öz yurd-yuvalarına qayıtmasını təmin etməkdir. Zirvə görüşünün yekun bəyannaməsində üzv dövlətlər ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpası, yenidən qurulması və reinteqrasiyası istiqamətindəki səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəy olduqlarını ifadə ediblər.

Prezident İlham Əliyev bütün tədbirlərdə, görüşlərdə Qarabağın bərpasının əsas prioritet olduğunu vurğulayır. Azərbaycan rəhbəri Novruz bayramında Şuşada bayram tonqalı ətrafında xalqa müraciətində də bu məsələyə toxunmuş, qarşıya qoyulan hədəflərə doğru inamlı addımlar atıldığını bildirmişdir.

Aprelin 1-də dövlətimizin başçısı Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul edərkən bildirib ki, bu maliyyə institutu ilə əməkdaşlıq bir çox mühüm sahələri əhatə edir, eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə də layihələr icra oluna bilər. "Orada infrastrukturun inkişafına böyük ehtiyac var. Çünki bütün infrastruktur dağıdılmışdır və insanları qaytarmaq üçün biz, əlbəttə ki, minalardan təmizləmə işlərini, sonra isə yenidənqurma işlərini həyata keçirməliyik. İnfrastruktur layihələri olmadan məcburi köçkünləri və qaçqınları qaytarmaq mümkün olmayacaq. Odur ki, biz bu məsələlərdə də Dünya Bankı ilə əməkdaşlığa güvənirik".

Azərbaycan Prezidenti vaxtaşırı işğaldan azad olunmuş rayonlara yollanır və quruculuq tədbirlərini şəxsi nəzarətində saxlayır. Martın 15-də Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyan zaman dövlət başçısı icra edilən yol layihələrinin ərazilərin bərpası baxımından önəmini açıqlamışdır. "Füzulidən Şuşaya yol çəkilir – Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır".

Qarabağın bərpası proseslərindən danışan Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, bu məsələdə qapılarımız dost ölkələrin üzünə açıqdır. Qürurverici faktdır ki, qardaş Türkiyə Qarabağın işğaldan azad olunmasında hərtərəfli mənəvi dəstəyini əsirgəmədiyi kimi, ərazilərin bərpasında da kömək etməsi ilə nümunə göstərir. Elə bu sahədə ilk müqavilələr də Türkiyə şirkətləri ilə imzalanmışdır. Qardaş ölkənin mütəxəssisləri, işçi qüvvəsi artıq Qarabağda səmərəli fəaliyyət göstərirlər. Orada erməni barbarlarının dağıtdığı qədim tarixi abidələrimizin, əzəli torpaqlarımızdakı türk mədəni irsinin bərpasında onların qardaşlıq köməyi əvəzsizdir. Digər ölkələr də bu qeyrət işində Azərbaycanın yanında olmaq məramlarını ifadə ediblər. Pakistan, İsrail, Macarıstan, İran, İtaliya və başqa ölkələri buna misal göstərmək olar. Beləliklə, Qarabağın yenidən dirçəldilməsi ölkəmizin siyasi-iqtisadi suverenliyinin mühüm dayağı və dost ölkələrin əməli birliyinin, işgüzar ünsiyyətinin təcəssümü olacaq.

Artıq işğaldan azad edilən bütün rayonlarımızın baş planları hazırlanaraq, bənd-bənd icraya yönəldilir. Qarabağın işıqlı sabahının konturları aşkarlanmaqda, inkişaf üfüqləri genişlənməkdədir. Ərazilər addım-addım minalardan və partlamamış mərmilərdən təmizlənir, məntəqələr elektrik enerjisi ilə təchiz olunur, əhəmiyyətli yol-nəqliyyat xətləri, içməli su, sanitar qovşaq və irriqasiya sistemləri bərpa edilir, ev-mənzil yaşayış sahələri yaradılır, humanitar məqsədlər üçün hava limanları tikilir. İlkin mərhələdə bu sahələrə yönəldilən sərmayələr tədricən bölgədə sosial və iqtisadi canlanmaya sərf ediləcək. Yüzlərlə hektar ərazidə taxıl əkilməsi reallaşdırılıb, artıq azadlıq havası udan bölgələrdə ailə təsərrüfatlarının yaradılması məsələsi də gündəmdədir. Bu isə məskunlaşmadan sonra məşğulluğun təminatına və həyat səviyyəsinin yaxşılaşdırılmasına səbəb olacaq. Böyük Qayıdışın başlanması Qarabağda coşğun həyat güləcək, perspektivdə buralar beynəlxalq turizm məkanına çevriləcək.

... Əvvəllər Laçının Güləbird kəndinin adı gələndə ürəklərimiz Sarı Aşığın bayatılarının işığına qərq olurdu. İndi isə həm də "Güləbird" Su Elektrik Stansiyası ətrafa işıq saçır. Dövlətimizin başçısı Laçına səfəri zamanı Həkəri çayı üzərində yerləşən və 8 meqavat gücündə olan həmin stansiyanın açılışını edib. Bu, işğaldan azad olunmuş rayonlarda Prezidentin xeyir-duası ilə işə salınan ilk infrastruktur layihəsidir. Burada istehsal edilən elektrik enerjisi Laçının cənub hissəsini, Qubadlının Xanlıq kəndini və ərazidə yerləşən digər infrastruktur layihələrini işıqla təmin edəcək. Stansiya təxminən 7000 nəfər əhalinin təminatında mühüm rol oynayacaq. Həmçinin bölgədə daha bir neçə işıq-həyat mənbəyi bərpa olunacaq. İranlı mütəxəssislərlə birlikdə tikiləcək "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının generasiya gücü daha böyük olacaq.

Prezident İlham Əliyevin ölkənin işğaldan azad edilmiş ərazilərinin "yaşıl enerji" zonasına, "ağıllı şəhər" və "ağıllı kənd" kimi mütərəqqi konsepsiyaların həyata keçirilməsi üçün platformaya çevriləcəyi ilə bağlı söylədiyi fikirlər bütün dünyanın diqqətini cəlb etmişdir. Ölkə rəhbəri Zəngilanda olarkən "ağıllı kənd" layihəsinə start verib. Bu layihənin icrası beş komponent üzrə aparılacaq. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələridir.

Bu ilin əvvəlində Prezident fərmanı ilə təsis olunan publik hüquqi şəxs - "Qarabağ Dirçəliş Fondu" da işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsinə dəstək üçündür. Qurum bərpa və abadlıq işlərinin, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasına töhfələr verməkdən ötrü müvafiq layihələrə yönəldilən ianələri və qrantları cəlb edəcək. Göründüyü kimi, dövlətimiz ən müxtəlif yollarla Qarabağın normal və coşğun həyata qayıtmasından ötrü səylərini əsirgəmir, lazımi rıçaqları işə salır.

Qarabağ bu gün pilot layihələr ünvanıdır, tezliklə əvvəlki kimi, gözəlliklər məskəninə, cənnətməkan diyara çevriləcək. Başı üzərində üçrəngli Azərbaycan bayrağının dalğalandığı Şuşa, Laçın, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Hadrut və digər ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bu inamı və xətircəmliyi daha da artırır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 3 aprel.- S.1.